***"Nizami" filmi dahi şairin həyatına həsr olunmuş ilk bədii filmdir. Bu film 40 ildir ki, ekranlarımızda nümayiş olunur. Filmdə şairin obrazı, o uzaq illərdə Azərbaycan xalqının siyasi və sosial həyatının ab-havası, insan münasibətlərinin mürəkkəb dünyası öz əksini tapmışdır. Bu film insanın tarixdə rolu, onun adamlar qarşısında borcu haqqında düşüncələrdir.***

# "Nizami" filmi 40 ildir ki, ekrandadır

Əslində, "Nizami" filminə Həsən Seyidbəyli quruluş verəcəkdi. Çünki filmin çəkilişini ideya şəklində irəli sürən, ssenarinin yazılışında yaxından iştirak edən və kinossenari üzərində son hazırlıq işləri ilə məşğul olan Həsən Seyidbəyli olmuşdur. Ancaq onun qəflətən dünyasını dəyişməsi filmin çəkilişini yarımçıq qoyur. Sonradan filmin çəkilişlərini rejissor Eldar Quliyev davam etdirir.

Bu film mütəfəkkir şairin mənəvi dünyasına bir növ səyahətdir. Vətənpərvərlik, öz torpağına, xalqına məhəbbət, qadına hörmət, tərəqqiyə, sülhə meyil, poeziyanın qüdrəti – Nizami əsərlərinin bu motivlərindən müəlliflər bütünlüklə istifadə edərək, orijinal və müasir təfsirli, dərin fikirli, genişmiqyaslı əsər yaratmışlar.

Filmdə Nizami roluna SSRİ Xalq artisti, görkəmli müğənni Müslüm Maqomayevin çəkilməsində qeyri-adi bir cəhd olduğunu düşünənlər var. Kifayət qədər praqmatik insan olan Eldar Quliyev bu faktı etiraf edib. Qəribəsi də budur ki, Eldar Quliyev Moskvanın birinci kanalına verdiyi müsahibədə film çəkilərkən XII əsr şairi dahi Nizami Gəncəvinin ruhu ilə "məsləhətləşdiyini" bildirib. Rejissor yaxın dostu, müğənni Müslüm Maqomayevi filmə cəlb edir və onu birtəhər razı salır. Çünki o zaman Maqomayevi bütün SSRİ tanıyırdı və İttifaq miqyasında filmə böyük maraq yaradacağını bilirdi. Digər tərəfdən isə məşhur aktyor Hamlet Xanızadə də rol üçün sınaqlara dəvət edilmişdi və bəyənilmişdi də. O zaman gənc rejissor Nizami roluna kimi çəkəcəyini yəqin edə bilmirdi. Bu məqamda filmdə Qivami Müzəffəri rolunda çıxış edən Xalq artisti Həsən Turabov ona qəribə bir təklif edib: "Biz tərəflərdə ruhçağıran var, bəlkə, ondan kömək istəyək. Nizaminin öz ruhu desin ki, filmdə əsas rolda kim çıxış etsin.

Rejissorun sözlərinə görə, o adam, sözün həqiqi mənasında, cəmiyyətin tanıdığı məşhur, ziyalı bir şəxs olub. Heç bir falçılıq işi ilə məşğul olmayıb, sadəcə, ruhlarla dialoqa girirmiş. Elə bu məşhurluğuna görə də Eldar Quliyev onun adını çəkmirdi. Həmin şəxsin dediyi vaxt yanına gedirlər. Heç məsələnin nə olduğunu da demirlər. Qeyd edək ki, kifayət qədər rasional şəxs olan, mistikaya inanmayan Eldar Quliyev Moskvanın əsas televiziya kanalında bunları danışarkən tamaşaçıların inamsız, birmənalı olmayan reaksiyası ilə üzləşib. Lakin rejissorun dediyinə görə, həmin gün ruhçağıran Nizami ilə "danışıb" və ondan filmə kimin çəkilməsini fotolar vasitəsilə soruşub. Rejissorun sözlərinə görə, Nizami Gəncəvinin ruhu Müslüm Maqomayevi seçib. Bu, Eldar Quliyevdə qəti əminlik yaradıb. Elə sabahısı gün Müslüm Maqomayevlə qəti söhbət edərək onu filmə çəkməyə başlayıb.

Parlaq fərdi yaradıcılığı olan M.Maqomayev Nizaminin dövrünü və ölməz misralarını dönə-dönə mütaliə edib, onu öz istedad və yaradıcılıq



prizmasından keçirərək, şairin fərdi obrazını yarada bilib.

Bəstəkar və müğənni M.Maqomayev müsahibələrinin birində bu barədə demişdir: "Bu əqidədə idim ki, müğənni oxumalıdır. Elə buna görə də təkcə musiqili filmlərdə deyil, başqa janrlarda yaradılan filmlərdə də çəkilmək barəsində bir neçə münasib təklifi rədd etmişəm. Lakin rejissor E.Quliyevin təklifi o qədər qeyri-adi, o qədər cəzbedici oldu ki, məni düşünməyə vadar etdi. Film hazır olandan sonra isə Eldar Quliyev yuxarıda bəhs etdiyimiz məsələ, ruhla söhbət barəsində bir neçə yerə, eləcə də Rusiya kanalına müsahibə verib, həmçinin Müslüm Maqomayevə də bu haqda danışıb".

Nizami mühitinin mahiyyətinə vardıqda , şairlə ictimai mühit arasında necə böyük dərin uçurum olduğunu aydın görmək mümkündür. Nizami düşüncələrinin dərin fəlsəfi mənası, ölməz əsərlərinin bəşəri ideallarla zənginliyi filmdə əsas xətt kimi keçir.

Film üzərində məşhur sənət adamları işləmişlər – operator Arif Nərimanbəyov, rəssam Mais Ağabəyov, bəstəkar Qara Qarayev. Rollarda Həmidə Ömərova (Pəri, Afaq), Həsənağa Turabov (Müzəffəri), Ələddin Abbasov (Xaqani Şirvani), Hacımurad Yegizarov (Qızıl Arslan) və digər aktyorlar çəkilmişlər.

Onu da qeyd edək ki, film 1983-cü ildə Leninqradda ( indiki Sankt-Peterburq) XVI Ümumittifaq kinofestivalının, 1984-cü ildə Daşkənddə Asiya, Afrika və Latın Amerikası ölkələrinin beynəlxalq kinofestivalının mükafatlarına, eyni zamanda, Özbəkistan Yazıçılar İttifaqının və Nazirlər Sovetinin diplomlarına layiq görülmüşdür.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***